# "Qlobus" yüksəkliyində şəhidliyə ucalmış bir qəhrəman

## Əfqan Abdurahmanov şəhidlik şərbətini cənnət müjdəsi kimi qəbul etmişdi

Azərbaycan müstəqil ölkə olaraq tarixin ağır sınaqlarından keçmişdir. Bir xalq olaraq da müxtəlif dövrlərdə müstəmləkəçiliyə, işğala, soyqırıma və s. faciələrə məruz qalmışıq. Qoca tarix çox acıların şahididir. Müharibələr zaman-zaman xalqımıza ağır məhrumiyyətlər yaşadıb.Tarix boyu xalqımız müharibə və savaşlarda şəhid verib. Buna baxmayaraq, Azərbaycan xalqı hər zaman bütün hallarda öz səbri, təmkini ilə Vətənə və dövlətə sədaqətini nümayiş etdirib, əxlaqlı, sülhsevər xalq olduğunu sübut edib.

2020-ci ilAzərbaycan xalqı üçün istər siyasi, istər diplomatik, istərsə də digər sahələr üzrə uğurlarla yadda qaldı. İlin ən mühüm uğuru olan 44 günlük Vətən müharibəsi də tarixdə əbədi qalacaq bir müharibədir.



27 sentyabr 2020-ci ildə ermənilərin törətdikləri təxribata cavab olaraq başlanan əks-hücum əməliyyatı - Vətən müharibəsi ümidsiz qəlblərimizi inam hissi ilə doldurdu, hər birimizin damarlarında Vətən hissi qaynadı, mərd oğullar 44 günə işğal altında ağı deyən torpaqlarımızı geri aldı.

Ürək həyatın işığı ilə dolu olanda, insanın Vətən sevgisi daha da artır. İnsan bu halda öz ürək sevdasına hakim olmağı bacarır.

Vətən müharibəsi zamanın diqtəsi, torpağı işğal altında olan bir xalqın çağırışı idi. 44 günlük haqq savaşımızda qəlbi Vətən, torpaq sevdalı minlərlə igidimiz ölümün gözünə dik baxaraq özünü odun-alovun içinə atmışdı. Azərbaycanın mərd oğulları bu çağırışa könüllü səs verib öz qanları bahasına qəhrəmanlıq salnaməsi yazaraq xalqımıza qələbə sevinci yaşatdı.

Qəhrəmanlıq kökdən-ulusdan, dədə-babadan, bir sözlə qandan gəlir.Qəhrəman oğulların uğrunda şəhid olduqları torpaq məhz bu nümunəni daim hifz edir, gələcək nəsillərə çatdırır.

Qəhrəman oğullar Vətənin sığındığı yıxılmaz ucalıqlardır. Vətənin qoynunda ölməyi özünə şərəf bilən qəhrəman oğullardan biri də Əfqan Abdurahmanov idi.

Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı olan Əfqan Ağasəf oğlu Abdurahmanov 1976-cı il mayın 25-də Bakı şəhərində dünyaya göz açıb.O, 1982-1993-cü illərdə Binəqədi rayonunda Vahid Əzizov adına 30 saylı tam orta mətəbdə təhsil alıb.

Əfqan Abdurahmanov uşaqlıqdan hərbi sahəyə maraq göstərib. Qarabağ münaqişəsi başlayanda Əfqanın 12 yaşı var idi. Həmin vaxt ermənilər tərəfindən azərbaycanlılara qarşı təxribat xarakterli qırğınlar törədilmişdi. Bu hadisələr onun yaddaşında dərin iz buraxmışdır.

Əfqan Dağlıq Qarabağın düşmən tərəfindən işğal edilməsi ilə heç cür barışa bilmirdi. O, buna görə də hərbçi olmağı və gələcəkdə işğal altında olan torpaqlarımızın azad olunmasında iştirak etməyi qarşısına məqsəd qoymuş və tərəddüd etmədən bu məqsədin arxasınca getmişdir.

Vətən sevdalı Əfqan Abdurahmanov1995-1997-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olduqdan sonra, 1997-2001-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Əfqan Abdurahmanov hərbi təhsil aldığı dövrdə nizam-intizamı ilə seçilib, ixtisasını daha da təkmilləşdirib. O, 2001-2002-ci illərdə isə Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində təcrübədə olub. Burada Əfqanın bir zabit kimi peşəkarlıq səviyyəsi yüksəlib, daha müasir hərbi peşə bacarıqlarına və vərdişlərə yiyələnibdir. Artıq 2002-ci ildən isə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmətə başlayıb. Beləcə, çətin və şərəfli yolda öz izlərini qoymağa başlayıb, peşəkar zabit yolu keçibdir. Peşəkar zabit xidmət etdiyi müddətdə tabeçiliyində olan hərbçilərin qayğısına qalıb, imkanı daxilində əlindən gələni əsirgəməyib, onlara hər cür dəstək olubdur. Hətta məzuniyyətdə olsa belə o, işindən ayrılmayıb, heç bir zəngi cavabsız qoymayıbdır.

Müzəffər ordumuzun igid qəhrəmanı Əfqan Abdurahmanov ordu sıralarında olduğu illər ərzində, demək olar ki, daim ön cəbhədə, düşmənlə burun-buruna xidmət aparıb.

Azərbaycan hərb tarixinin qızıl səhifəsi olan Aprel döyüşlərində ön cəbhədə olanlardan biri də Əfqan Abdurahmanov idi. Tarixə dördgünlük müharibə kimi daxil olan 2016 -cı il Aprel döyüşləri zamanı Əfqan Goranboy rayonunun Baranbat meşəsi adlanan ərazidə xidmət edir. Əfqan Abdurahmanov Aprel döyüşləri zamanı Tərtər istiqamətində gedən döyüşlərdə mərdliklə savaşaraq böyük şücaət göstərir.Vətənin igid oğlu Əfqan Abdurahmanov cəsarəti, hünəri ilə hər zaman qibtə hissi doğururdu. Aprel döyüşlərində yaxın dostu polkovnik-leytenant Murad Mirzəyevin böyük şücaət göstərərək, qəhrəmancasına şəhid olması polkovnik-leytenant Əfqan Abdurahmanovu çox sarsıdır.

Azərbaycan Respublikasının müstəqillik tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilən və 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun polkovnik-leytenantı Əfqan Abdurahmanov iştirak edərək, xüsusi qəhrəmanlıq göstərir. Əfqan Abdurahmanov bir fədaidir - Vətən fədaisi. O müharibənin ilk anlarından böyük həvəs və coşqu ilə döyüşlərə qatılır.

Cəsur hərbçimiz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün işğaldan azad edilən ərazilərimizdən biri olan Murov dağı silsiləsindəki zirvələrdən birinin düşməndən azad edilməsində qəhrəmanlıq göstərir və həmin zirvəyə Azərbaycan bayrağını sancır. Polkovnik-leytenant ən çətin anda düzgün qərar vermə bacarığı və relyefi düzgün qiymətləndirməsi sayəsində heç bir itki vermədən hərbçilərlə birgə bu uğura nail olur.

Təcrübəli komandir Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərə cəsarətlə atılır. Bu istiqamətdə döyüşən polkovnik - leytenant Əfqan Abdurahmanovun qəhrəmanlığı dillərə dastan olur. Azərbaycan Ordusunun vətənpərvər oğlu Əfqan Suqovuşan istiqamətində düşməni ağır məğlubiyyətə uğradır, tutduqları mövqelərdən geri çəkilməyə məcbur edir və Azərbaycanın Milli Qəhrəmanı Mubariz İbrahimovun şəhid olduğu postu da azad edir.

Bu əməliyyat nəticəsində Azərbaycanın işğal altındakı ərazilərini Ermənistanla birləşdirən strateji əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu nəzarətə götürülür. Bu isə Ermənistandan Kəlbəcər və Ağdərəyə hərbi yüklərin marşrutla daşınmasının qarşısını alır. Əməliyyatın uğurlu keçməsində Əfqan Abdurahmanov və onun döyüşçülərinin böyük rolu olur.

Polkovnik - leytenant Əfqan Abdurahmanovun rəhbərliyi altında əsgərlərimiz düşmənin arzularını üreyində qoydu. İgid hərbçimiz Suqovuşan uğrunda döyüşlərdə bir hünər salnaməsi yaradır, bir qəhrəmanlıq dastanı yazır. Şəhid olduğu gün o dastanın baş obrazına çevrildi, o salnamənin əsas obyekti oldu.

2020-ci il oktyabrın 10-da qəhrəman zabit Əfqan Abdurahmanov Ağdərə ətrafında yerləşən "Qlobus" yüksəkliyinin düşməndən azad olunması əməliyyatında iştirak edərkən, partlayış dalğasından aldığı ağır zərbə nəticəsində şəhadətə qovuşur. O, Qəbələ rayonunun Əmirvan kəndində torpağa tapşırılır. Həmyerlisi Polad Həşimovun intiqamını alacağına söz verən Əfqan Abdurahmanov döyüş zabitinin qələbə arzusunu canı ilə qəhrəmancasına reallaşdırır.

Onun göstərdiyi əzmin, fədakarlığın bir adı var idi - Vətən və Vətən sevgisi!

Əfqan Abdurahmanov Vətənə xidmət etdiyi dövrdə hərbi nailiyyətlərinə görə müxtəlif illərdə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalları, "Qüsursuz xidmətə görə" 1-ci, 2-ci, 3-cü dərəcəli və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medallar ilə təltif edilib.

Qəhrəman şəhid Əfqan Abdurahmanov Vətən müharibəsindəki misilsiz xidmətlərinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən, "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

O, Vətəni qorudu. Vətən də onu ucaltdı. İçdiyi and şəhadət şərbəti kimi şirin oldu. Onun qəhrəmanlıq salnaməsi bizim hər birimizin yaddaş tarixinizdir.

Onun həyat arzusu da, amalı da, qarşısına qoyduğu məqsədlər də məhz işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad olması, düşməndən geri alınması idi. Şərəfi və fədakarlığı ilə şəhidlik adlı zirvənin ən uca məqamlarına yetdi, orada əbədi məskən saldı.

Əfqan kimi mərd oğullar şəhid olsalar da, əbədi həyat qazandılar. Əfqan Abdurahmanov şəhidlik şərbətini cənnət müjdəsi kimi qəbul etmişdi.

Şəhid Vətən uğrunda təmannasız can fəda edən qəhrəmandır. Şəhidlər öz qəhrəmanlıq əzmləri ilə tarixi keçmişimiz, bu günümüz və sabahımız üçün çox dəyərli səhifələr açıblar. Onların şücaəti, hünəri sayəsində torpaqlarımız çəkdiyi ahlardan yaxa qurtarıb.

Şəhidlər Vətən-torpaq səcdəgahıdır. Vətən adlı seyrəngahda yüksək hüdudlara çıxa bilmək hər kəsə nəsib olmur. Şəhid Əfqan Abdurahmanov artıq bu "vadi"də qərar tutub. Nəsillər onun bu fəaliyyətini daim mənalandıracaq, onu həmişə yada salacaqlar. Şəhidliyə gedən yol sabaha qürurla açılan tarix-şərəf qapısıdır. Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı Əfqan Abdurahmanov da tarixə şərəf verdi, tarix də onu şəhid kimi yaddaş salnaməsinə çevirdi.

Bu gün Əfqan Abdurahmanovun şəhadəti Vətən göylərində həzin notlarla süslənir.

Biz Vətən uğrunda canlarını fəda edərək əbədiyyətə köç edən Əfqan Abdurahmanov kimi oğullara borcluyuq, onlara minnətdarıq. Onlar əbədi olaraq Vətən adlı salnamədə özlərinə bir səltənət quracaqlar.

Vətəni qorumaq kimi müqəddəs bir amal uğrunda döyüşə atılan və düşmənə sinə gərən qeyrətli Vətən oğullarını yad etmək, bütün şəhidlərimizin əziz xatirəsinə ehtiramla yanaşmaq, onların adlarını əbədiləşdirmək və ruhlarını şad etmək isə bizim hər birimizin ən müqəddəs vəzifəsi və borcu olmalıdır. Onların keçdiyi döyüş yolunu gənclərə çatdırmaq, onlarda vətənpərvərlik hissini formalaşdırmaq, şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək isə hər birimizin ən böyük amalı olmalıdır.

***Gülnar BƏŞİROVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi***